**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№383/1** **15 dekabr 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının təsdiq edilməsi barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə və “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına (2021-2030-cu illər)” uyğun olaraq Aparatın rəhbəri Q.Bayramov və Daxili auditor Ş.Əsgərova tərəfindən hazırlanmış iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).
2. Məsul icraçılara (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Ş.Əsgərova, E.İbrahimov, Q.Əhmədov, V.Cavadov, E.Hacıyeva, R.Cəfərli, Z.Almazov, B.Qasımova, B.Orucov, N.İsmayılova, E.Qəmbərov, V.Sərdarov, M.Hüseynova) tapşırılsın ki, təsdiq edilmiş iş planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
3. Auditorlar Palatasının aparatının rəhbəri Q.Bayramova və Daxili auditor Ş.Əsgərovaya tapşırılsın ki, bir həftə müddətində Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2026-cı il üzrə iş planının layihəsini hazırlayıb təqdim etsinlər.
4. Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, iki ay müddətində bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının mətnlərinin ingilis dilinə tərcümə olunmasını və Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsini təmin etsin.
5. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-ci il üzrə iş planın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**